

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# AZADLIQ HAVASINA KÖKLƏNƏN GÜLLƏR

**Faiq Balabəyli son illərdə yazdığı şeirləri şeirləri "Yağışdan sonra" kitabında cəm edəğ, oxuculara ünvanlayıb. Və baxıb görürəm ki, 55 yaşı ərəfəsində o artıq yetkin bir şair kimi diqqəti cəlb edir. Elə həmin kitaba ön söz yazan Xalq şairi Sabir Rüstəmxanlı da qeyd edir ki, Faiq Balabəyli bir şair kimi daim inkişafdadır, hər yeni kitabında öz mövzularına sadiq qalır, öz poetik tərcümeyi-halını zənginlıəşdirir.**

Faiq Balabəyli bir şair kimi özünəməxsuslubu ilə seçilir, -desək, doğru olar. Bunu onun bir kitablıq şeirləirində də görə bilərik. Elə ilk şeirlərindən və ilk şeir kitablarından hiss olunurdu ki, Faiq sözünün təzəliyinə can atır, dahi Füzulinin "Ver sözə ehya ki.." kəlamına sadiq qalmaba çalışır. Hər bir şairin özünəməxsusluğu onda təzahür edir ki, təsvir və tərənnüm etdiyi, yaxud inka rvə rədd etdiyi hadisələrə münasibətində ilk növbədə, səmimi olsun. Bu səmimiyyət heç də zahiri görüntü olmasın və Fiq də bu prinsipə əməl etməyə borcludur. Faiq Balabəyli hər şeirində səmimidir-güllərdən, çiçəklərdən yazanda da, öz doğma kəndini yad edəndə də, böyük Vətənlə bağlı düşüncələrini qələmə alanda da, həbsxana həyatında keçirdiyi abrıacıları gizləıtməyəndə də, sevgi hisslərini büruzə verəndə də, şeirdən-sənətdən, şairlikdən söz açanda da bu səmimiyyət hissi onu tərk eləmir. Ancaq səmimiyyət o zaman xoş təəssürat oyadar ki, onu poeziya dililə ifadə etmək mümkün olsun.Burada artıq istedad məsələsi ortaya çıxır. "Vətənə ağı" şeiri məncə, Faiqin ən səmimi, həm fərdi, həm də ictimai duyğularını ifadə edən bir şeiridir. Və bu şeirdə onun şairliyi ilə "Vətən daşı" (M.Araz) olmağı vəhdət təşkil edir.

"Vətənə ağı" əslində, KÖVRƏLMƏK ÜÇÜN YAZILMAYIB, KƏDƏRƏ BÜRÜNMƏK ÜÇÜN DƏ QƏLƏMƏ ALINMAYIB. O "AĞI"NIN, O KƏDƏRİN İÇİNDƏ ZÜLMƏT YOX, İŞIQ AXTARIR Faiq.

**Elə istəyirəm ki,**
**Sənin üçün ölümə gedəm;**
**Buna görə yaşamaq istəyirəm,**
**Yaşamaq!**

Yaşamaq yanğısı təkcə şairin öz fərdi duyğuları ilə bağlı deyil, həm də real həyatla, o həyatın həm ağrılarını, həm də sevinclərini duymaqla da maraqlıdır. "Elə bil, bu kəndin yiyəsi yoxdu!" - Faiq Balabəyli vaxtilə özünü bu kənddə xoşbəxt hesab edirdi, tindi isə...

**Bu bahar ağaclar qısır qalacaq**
**Yarpaq açmayacaq budaqlarında.**
**Yuva qurmayacaq hacıleyləklər,**
**Solacaq çöllərdə otlar, çiçəklər**
**Lalə bitməyəcək, gül açmayacaq,**
**Çəmənlik boyunca körpə uşaqlar**
**Kəpənək qovaraq ta qaçmayacaq -**
**İndi kəndimizdə kəpənək yoxdu.**

Ağır gəlir adama...Amma Faiqin "Arada" adlı başqa bir şeiri də var və o şeirdə bir nəfəslik kədər də yoxdu, təəssüf yoxdu.faiq deyir ki: "kəndimizin üstündən uçan buluda uzanmaq istəyirəm, əllərim təndirdəymiş kimi qızınım, yağış damlası kimi çırpam özümü ayrılıqların baş verdiyi kənd yollarına". Bu artıq yaşamaq, doğuoluğu kəndi sevmək, əvvəlki kimi görmək duyğusundan yaranır. Ümumiyyətlə, Faiq Balabəylinin şeirlərinlə bir-birilə təzad təşkil edən belə meyllər



diqqətdən yayınmır. Deyir ki: Mən nec sabaha ümid bağlayım?!" Deyir ki:Mən bədbəxt adamam" və deyir ki: Mən də öləcəyəm günün birində"-bütün bunlar küskünlük, bədbinlik saçır. Amma təkcə Faiqin deyil, onun bir çox həmyaşıdlarının da şeirlərində nəzərə çarpır. Faiqin "Məhbusun dəftərindən" silsiləsindən olan şeirlərində də bu küskünlük, narazılıq hissləri ifrat dərəcəyə çatır:

**Mən həbsxana həyatına**
**öyrəşə bilmədim,**
**Çırpındım qəfəsdəki quş tək.**
**Hər gecə bir şirin yuxu arzuladım,**
**Gözlədim bayquş tək.**
**Torağaylar kimi**
**Yuvamda qalan balamı arzuladım.**
**Yolumu gözləməkdən**
**Gözləri çuxura düşən**
**Mən yaşamaq istədim,**
**"Həyat gözəldir" dedim.**

"Mən yaşamaq istədim"- bu da ən bədbin görünən şeirdə ən nikbin misradır. Bütün bunlara Faiqi qınamaq olarmı? Zənnimcə, yox! Çünki Sabir Rüstəmxxxaaanlının dediyi kimi, Faiq Vətənini, yurddunu sevir, amma onun faciələrinə dözə bilmir, öz şair-vətəndaş mövqeyini bildirməkdən çəkinmir. Öz dərdlərini, ağrı-acılarını belə unudur:

**Şuşanın Daşaltı faciəsinə**
**Sifəti daş olan daş da utanır!**
**Nə qədər ağlayıb, səbr etmək olar?!**
**Axır gözümüzdə yaş da utanır...**
**Heç nə dəyişmir.!**

Amma Faiqin şeirlərində romantik duyğular da yox deyil.

**Sənin əlindən tutmaq**
**Hər şeyi unutmaq**
**Göz yaşlarını qurutmaq**
**istəyirəm.**
**İstəyirə adımı heca-hecə**
**Eşidim dodaqlarından.**
**Yaralı quş kimi çırpınan**
**sinənə sıxılmaq istəyirəm.**

Bu şeir həbsxanada yazılıb. Baxın:

**Bayıl türməsinin həyatini**
**azadlığın könül oxşayan havasından**
**qoruyan,**
**qızıl qana boyanmışdı sanki.**
**Ləçəkləri qan-qırmızı,**
**Yanaqları isə yam-yaşıl idi.**
**Azadlıvq havasına köklənmişdi**
**bu güllər...**

Faiqin əvvəlki şeir kitablarında təbiətdən gələn notlar az deyildi. Amma bku kitabında belə şeirlərə tək-tük rast gəlirik, əlbəttə, söhbət sırf təbiət şeirlərindən gedir. Amma az olsun, yaxşı olsun! "Axşamkı yağışdanq sonra"s şeiri göstərir ki, Faiq Balabəylidə o duyğu heç də əksilməyib. O, təbiətdən yazanda vəsf və tərənnüm yolunu seçmir, hansı gülüsə, çiçəyisə, dağısa, çayısa vəsf eləmir, sadəcə, təbiətin insan hisslərinə təsirini ön plana çəkir:

**Axşamkı yağışdan sonra**
**anamın fikri iki,**
**gözləri dörd olacaq;**
**aranı dağa daşıyacaq**
**dağı arana.**
**Axşamkı yağışdan sonra**
**Azadlığa çıxmaq həvəsim**
**birə beş artdı.**
**Və bu düşüncələrlə mən**
**oğlumun alnından öpmək istədim,**
**qızımın saçından,**
**anamın ürəyindən.**

Kitabda "Tənhalığın şərqisi" silsiləsindən şeirlər də maraq doğurur. Faiqin tənhalığı fərdi həyatının özəlliyindən doğur (həmişə belə olurmu), yoxsa həyatdakı reallıqların, "zəmanənin pis üzünün" ona təsirindənmi? Hər halda, hər ikisindən...

**Titrədi yarpağı bu qovağın da**
**Budağı əyildi dizinə sarı...**
**Gəlsəydi yoluna xalı edərdi**
**Qəribsəmiş ağac bu yarpaqları...**

Ağac da qəribsəyir. Təkcə öz tənhalığını deyil, sevdiklərinin də tənhalıq qəhərini yaxşı duyur. Özünün itənhalığında kəndini xatırlayır, içinə çökmüş ağrı-acılarından söz açır və bilirsən ki, tənhalığın fərdi-subyektiv çaları budur.

**Sən olmayan məkanda**
**Hər şey sməssmzlik içində.**
**Yuxusuzluq**
**yoxsulluq kimi.**
**Əlini üstümüzdən çəkmədi ha...**
**Özüm yada da düşmürəm!**

Təbii ki, təzə şeirlər kitabında onun yaxşı şeirləri ilə müqayisədə mənim də bəyənmədiyim şeirlər var. Amma mən bunların üzərindən sükutla keçirəm, çox deyil və lap öncədən dediyim sözə qayıdıram: Faiq Ğalabəyli artıq yetkin şairdiro, sözünün poetik çəkisini, urvatını bizə çatdıra bilir. Bu qədər.



2019.-12 yanvar.-S.15.